# Heydər Əliyevin yadigarları

Ötən əsrin ortalarından bərqərar olan Sumqayıta çox vaxt gənclər şəhəri də deyirlər. Çünki onun təməlini ötən əsrin əllinci illərində keçmiş sovetlər ölkəsinin müxtəlif yerlərindən buraya gələn gənclər qoyub. 1970-ci ildən başlayaraq Ümummilli Lider Heydər Əliyevin qayğısı nəticəsində inkişafa başlayıb. Az bir zaman kəsiyində bu şəhər təkcə SSRİ-də deyil, bütün dünyada tanınan sənaye mərkəzinə çevrilib.

Həmin illərdə tikilən zavodlar, salınan yaşayış massivləri o qədər sürətlə aparılırdı ki, insanların qurub-yaratmaq eşqi ilə üstələnirdi. Heydər Əliyev tez-tez Sumqayıta gələr, şəhərin infrastrukturunun düzgün qurulmasında yaxından iştirak edərdi. Sumqayıtı gənclər şəhəri adlandıran Ulu Öndər mədəniyyət ocaqlarının inşası ilə şəxsən maraqlanar, ictimaiyyət nümayəndələrini dinləyər, onlara öz tövsiyələrini verərdi.

Yeni salınan şəhərdə mədəniyyət ocaqlarının yaradılmasına Ulu Öndər xüsusi həssaslıqla yanaşmağı məsləhət görər, onların yerinin seçilməsində və tikintisində birbaşa iştirak edərdi. Yaradılacaq mədəniyyət mərkəzlərində milli-mədəni dəyərlərimizin təbliği və onların qorunması Ümummilli Liderin gənc sumqayıtlılara verdiyi tövsiyə idi.

Quruculuq illərində inşa edilən mədəniyyət saraylarından biri də Hüseyn Ərəblinski adına Sumqayıt Dövlət Musiqili Dram Teatrının binasıdır (hazırda Sumqayıt Dövlət Dram Teatrı adlanır). Birincisi, həmin teatrın binasının inşa yeri məhz Heydər Əliyevin göstərişi ilə seçilib və tikilməyə başlayıb. İllərin üstündən boylanıb baxanda qəribə bir mənzərənin şahidi oluruq. Bu gün şəhər nə qədər ətrafa doğru genişlənsə, inkişaf etsə də, yenə teatrın binası öz unikallığını qoruyub saxlayır.

1969-cu ildən fəaliyyətə başlayan teatrın səhnəsində təkcə Azərbaycan deyil, dünya mütəfəkkirlərinin əsərləri də tamaşaya qoyulardı. Sumqayıta gələn Ulu Öndər teatra gələr, aktyorlarla səmimi söhbət edərdi. Çox zaman tamaşa məşqlərinə baxar, tövsiyələrini verərdi. Bu, aktyorlara səhnə fəaliyyətlərində böyük stimul verərdi.

Artıq uzun illərdir ki, həmin teatrın binasında, foyedə bir şəkil bura gələnlərin diqqətini xüsusi cəlb edir. Həmin şəkil uzun illərin xatirəsini bu günə daşıyan bir yadigardır. İnsan bu şəklə baxdıqca gözləri önündə Ulu Öndərin tarixi bir xatirəsi canlanır.


Sumqayıt Ərəblinski adına dövlət-dram kollektivinin üzvləri ilə

1981-ci ildə tamaşaya qoyulan əsərlərdən biri də Nəriman Həsənzadənin "Bütün Şərq bilsin" əsəri idi. Burada vətənpərvərlik, yenilik, gələcəyə inam ideyaları yer almışdı. Moskvada keçirilən tamaşanın premyerasında Heydər Əliyev də iştirak etmişdi. Tamaşa sona çatdıqdan sonra Ulu Öndər səhnəyə qalxıb aktyorlarla görüşmüşdü. Üzünü zala çevirən böyük rəhbər demişdi:

- Baxın, bizim necə gözəl əsərlərimiz var. Belə əsərlər xalqımızın parlaq siması, nurlu gələcəyinə atılan addımdır. Məncə belə əsərlər çox yazılmalı, onlar tamaşaya qoyulmalıdır. Nəinki Şərq, bütün bəşər Azərbaycan mədəniyyətinin nəyə qadir olduğunu görməlidir. Biz azərbaycanlılar buna qadirik və bunu edəcəyik.

Onu da bildirək ki, məhz bu tamaşadan sonra Ümummilli Liderin qayğısı nəticəsində Sumqayıt Dövlət Dram Teatrı səhnə əsərləri ilə hamını heyran etdi. Respublikanın onlarla məşhur aktyor personalı ilk iş yeri kimi buradan qanadlandı. Teatrda çalışan kollektiv daim Ulu Öndəri yad edir. Hər tamaşada, hər məşqdə bu duyğu onlara stimul verir. Nəsillərə nümunə olan Ümummilli Lider ömrünün izləri sumqayıtlıların qəlbində həmişə yaşayacaqdır.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***

Azərbaycan.- 2022.- 11 dekabr.- S.11.